**Muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı artmışdır**

2012-ci ilin iyun ayında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta siyahı sayı 1 milyon 388,2 min nəfər olmuş və onlardan 852,3 min nəfəri iqtisadiyyatın dövlət bölməsində, 535,9 min nəfəri isə qeyri-dövlət bölməsində fəaliyyət göstərmişdir.

Dövlət Statistika Komitəsindən bildirmişlər ki, muzdla işləyənlərin 23,9%-i təhsildə, 19,4%-i ticarət, nəqliyyat vasitələrinin təmiri sahəsində, 12,3%-i sənayedə, 9,6%-i əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsində, 6,9%-i tikintidə, 5%-i nəqliyyat və anbar təsərrüfatında, 3,2%-i peşə, elmi və texniki fəaliyyət sahəsində, 3%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində, 1,9%-i informasiya və rabitə sahəsində və 14,8%-i iqtisadiyyatın digər sahələrində məşğul olanlardır.

2012-ci ilin iyun ayında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək-haqqı 397 manat təşkil etmiş, yanvar-iyun aylarında isə keçən ilin müvafiq dövrünə nisbətən 8,3% artaraq 384,5 manat olmuşdur.

Digər fəaliyyət növləri ilə müqayisədə mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyətində, informasiya və rabitədə, peşə, elmi və texniki fəaliyyət sahəsində, nəqliyyat və anbar təsərrüfatı sahəsində və tikintidə orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.